*significant export potential internationally, and conducting an empirical analysis from the perspective of integration degree, competitiveness, and dependency level using economic-statistical methods.*

**Keywords:** *Hazelnut sector, price transmission model, Azerbaijan, Turkey.*

А.Н. Ширин
*Докторант* Центр Аграрных Исследований
Азербайджанский технический университет

**Передача цен между Турцией и Азербайджаном через сектор фундука: теоретический и эмпирический анализ**

*Резюме*

*Фундуководство считается одним из важных стратегических направлений сельского хозяйства с экспортной ориентацией в развитии негосударственного сектора экономики Азербайджана. Развитие фундукового сектора, который играет особую роль в диверсификации экономики страны, является одним из основных приоритетных направлений. Развитие фундукового сектора Азербайджана, который занимает ведущие позиции в мировом производстве фундука, должно рассматриваться и на международной арене. При оценке этого сектора с различными направлениями развития основные экономические оценки должны проводиться с глобальной точки зрения. В этом смысле направлением исследования статьи является изучение механизмов передачи цен в секторе фундуководства между Азербайджаном и Турцией, обладающими основным экспортным потенциалом на международном уровне, проведение эмпирического анализа с использованием экономико-статистических методов с точки зрения степени интеграции, конкурентоспособности и уровня зависимости.*

**Ключевые слова:** *сектор фундуководства, модель передачи цен, Азербайджан, Турция.*

**UOT:338.48, 379.8** **DOI: https://doi.org/10.30546/19023.2026.01.048.1138**

# QLOBAL RƏQABƏT MÜHİTİNDƏ AQROTURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Anar Balabəy oğlu Məlikov**
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***
***ORCID: 0009-0007-7582-5305***
***e-mail:malikzadeanar@gmail.com***

***Xülasə***

*Qeyri-neft sektorlarının inkişaf etdirilməsi qlobal rəqabət mühitində, neft ixrac edən ölkələr üçün mühüm strateji əhəmiyyətə malikdir. Bu baxımdan, Respublikamızda agroturizmin inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu nəzərə alsaq, qlobal rəqabət mühitində aqroturizmin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi mühüm qlobal çağırışlar kimi səciyyələnir.*

*Qlobal rəqabət mühitində aqroturizmin inkişafı regionlarda yeni iş yerlərinin yaradılması və etibarlı məşğulluğun təmin edilməsi ilə bağlı prosesləri özündə ehtiva edir. Bunu nəzərə alaraq məqalədə qlobal rəqabət mühitində aqroturizmin yeri və rolu qiymətləndirilir, aqroturizmin inkişafında xarici ölkələrin təcrübəsi və ölkəmizdə aqroturizmin inkişaf perspektivləri təhlil edilir.*

***Açar sözlər**: qlobal rəqabət mühiti, aqroturizm, aqroturizmin dəstəklənməsi, regionların sosial-iqtisadi inkişafı.*

## Giriş

Qlobal rəqabət mühitində alternativ sahələrin inkişaf etdirilməsi, şaquli şaxələndirmənin mühüm tərəfini özündə əks etdirən və dövlət büdcəsinə, eləcə də əmtəə istehsalçılarının və ev təsərrüfatlarının gəlirlərinə əlavə töhfə verən sahələrin yaradılması və inkişafının dəstəklənməsi mühüm strateji əhəmiyyət kəsb edir. Bu baxımdan aqroturizmin inkişaf etdirilməsi kənd yerlərində ailənin gəlirlərinin artırılmasına əlverişli şərait yaratmaqla, onların alıcılıq qabiliyyətinin yüksəldilməsinə geniş imkanlar açır.

Qlobal rəqabət - qlobal resurslar, bazarlar, texnologiyalar üzərində nəzarət uğrunda ölkələr, şirkətlər və regionlar arasında genişmiqyaslı rəqabəti səciyyələndirir. Bu, dəyər zəncirlərinin yenidən qurulması, texnoloji suverenlik uğrunda mübarizə, süni intellektin sürətlənmiş inkişafı və bazarların yenidən istiqamətləndirilməsi ilə müəyyən olunur. Qlobal rəqabət mühitinin aqroturizmin inkişafına təsiri beynəlxalq standartlar, sertifikatlaşdırma mexanizmləri, qlobal rezervasiya platformaları ilə şərtlənir. Aqroturizmin inkişafı baxımından birmənalı yanaşma və vahid standartlar mövcud olmasa da, Ümumdünya Ticarət Təşkilatının qəbul etdiyi müəyyən normalar mövcuddur. Bu normalar içərisində təhlükəsizlik, sanitar-gigiyenik normalara əməl edilməsi, turistlərin məskunlaşdığı evlərin açıq təbiətə

inteqrasiyası, ekoloji amillər, eləcə də xüsusilə xarici turistlərin kənd məhsullarının hazırlanması texnologiyalarında iştirakı və s. önəmli rol oynayır.

Aqroturizm potensialına nalik ölkələrdə sertifikatlaşdırma turizm xidmətlərinin keyfiyyətinə nəzarət sistemlərini, tibbi və təhlükəsizlik xidmətinin etibalığını, fasiləsizliyini və s. nəzərdə tutur. Avropa ölkələrində sertifikartlaşdırma turist qəbul edən kənd ailələri və turistik regionlar üçün əməl edilməsi məcburi xarakter daşıyan standartların məcmusu kimi dəyərləndirilir.

Qlobal rezervasiya platformaları son istehlakçılarla turizm xidmətinin təchizatçıları arasında vasitəçilik funksiyalarını yerinə yetirən rəqəmsal bronlaşdırma sistemidir. Qlobal rezervasiya platformalarının mərkəzi məlumat bazasında minlərlə aqroturizm məkanınının icarə qiymətləri, mövcud boş olan kənd evləri haqqında audiovizual informasiyalar, təyyarə biletləri, avtomobil kirayəsi, ictimai iaşə, əyləncə, ekskursiya turları haqqında informasiyalar mövcud olur.

Xüsusilə, kənd əhalisinin kənd təsərrüfatından başqa alternativ məşğulliyyət və gəlir əldə etmək imkanlarının məhdud olması aqroturizmin inkişafını daha çox obyektiv zərurətə çevirir. Qlobal rəqabət mühitində aqroturizmin inkişafının dəstəklənməsi istiqamətində hər bir ölkədə müvafiq tədbirlər işlənib hazırlanır və həyata keçirilir.

## Qlobal rəqabət mühitində aqroturizmin inkişafının səciyyəvi cəhətləri

Qlobal rəqabət mühiti qloballaşma fonunda formalaşır və inkişaf edir. Qloballaşma yeni istehlak xüsusiyyətləri və yeni istehsal sahələri doğurur. Bu istehsal və istehlak sahələri dəyişən dünya reallıqlarına, dəyişən dünya düzəninə müvafiq olaraq formalaşır. Bir sıra hallarda isə qlobal rəqabət mühitinin və qloballaşmanın təzahürləri hər hansı bir ölkənin iqtisadi inkişafından, spesifik xüsusiyyətlərindən, iqlim şəraitindən və iqtisadi sisteminin tipindən, xarakterindən asılı olur. Qloballaşma prosesləri istehlakçı davranışlarını və zövqlərini nəzərəçarpacaq dərəcədə dəyişir. Xüsusilə postsənaye cəmiyyətinin inkişafı fonunda xidmət sahələrinin sürətli inkişaf meyilləri müşahidə edilir ki, bu da əksər hallarda inkişaf etməkdə olan ölkələrin milli iqtisadiyyatında ənənəvi sahələrin inkişafında tənəzzül meyillərini dərinləşdirir. Əhalinin istehlakında, o cümlədən qidalanmasının strukturunda və geyim tərzində qərb ənənələrinin üstünlük təşkil etməsi həm ənənəvi mətbəxin, həm də ənənəvi geyimlərin dəbdən düşməsinə, mənəvi aşınmaya gətirib çıxarır [ 1, s. 142, 143]. Qlobal rəqabət mühiti eyni zamanda iqtisadiyyatda yeni sahələrin fəal şəkildə inkişafına gətirib çıxarır. Bu sahələrdən biri də aqroturizmin inkişaf etdirilməsidir. Doğrudur, turizmin uzun illərə söykənən inkişaf tarixi mövcuddur. Lakin aqroturizm fəaliyyəti, bütövlükdə dünya iqtisadiyyatına gec daxil olsa da, hazırda Şimali Avropa, eləcə də Mərkəzi və Cənubi Avropanın inkişafında bu sahədən əldə edilən gəlirlər dövlət büdcəsinin formalaşmasında önəmli rol oynayır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm sahəsində sahibkarlığın inkişafı milli gəlirlərin formalaşmasında əhəmiyyətli rol oynayır. Belə ki, ABŞ, Almaniya, İtaliya, İspaniya, Fransa və digər ölkələrdə milli iqtisadiyyatın inkişafında turizm mühüm rola malikdir. Bundan əlavə, milli iqtisadiyyatın inkişafının əhəmiyyətli amillərindən biri kimi çıxış etməklə rekreasiya resurslarından səmərəli istifadə də böyük əhəmiyyət daşıyır. Xüsusilə Çin, Yaponiya, Tayvan, Sinqapur, Avstraliya və Yeni Zelandiya kimi ölkələrdə kifayət qədər geniş yayılmış rekreasiya resursları mövcuddur. Bu resurslar turizm sənayesinin inkişafında və turistlərin əraziyə cəlb edilməsində əhəmiyyətli vasitə sayılır [ 2, s. 183, 3, s. 75].

Qlobal rəqabət mühitində aqroturizmin inkişafı, aqroiqtisadiyyatda struktur yenidənqurmanın həyata keçirilməsinin mühüm vasitələrindən biri hesab olunur. Aqroturizm aqroiqtisadiyyatda modernləşmə prosesinin uğurla həyata keçirilməsini və aqrar sahədə struktur dəyişikliklərinin həyata keçirilməsində sosial amortizator funksiyasını yerinə yetirmək iqtidarındadır. Aqroturizmin inkişaf etdirilməsi cəmiyyət üçün sosial amortizator hesab olunur, çünki bu, kənd yerlərində yaşayan əhalinin əlavə gəlir mənbələrinə malik olmasını səciyyələndirir. Bundan əlavə, respublikamızın müxtəlif regionlarında elə ərazilər mövcuddur ki, həmin regionlarda ilin müxtəlif fəsillərində aqroturizmin inkişaf etdirilməsi üçün geniş imkanlar var. Bu imkanlardan səmərəli istifadə edilməsi, eyni zamanda ilin bütün fəsillərində mövcud və tələbata uyğun kənd yerlərinin potensialından səmərəli istifadə etməyə əsas verir.

Qlobal rəqabət mühiti aqroturizmin inkişafında özünəməxsus səciyyəvi xüsusiyyətlər doğurur. Bu amillərdən biri də turizm bazarının digər xidmətlər bazarı ilə qarşılıqlı əlaqəyə malik olmasıdır. Turizm xidmətləri sistemində ayrı-ayrı turizm bazarları digər xidmət bazarları ilə inteqrasiya halındadır. Bu bazarlara nəqliyyat xidmətləri bazarını, qida məhsulları bazarını, əyləncə xidmətləri bazarını, informasiya bazarını və s. aid etmək olar. Adı çəkilən bu bazarlar turizm xidmətlərinin inkişaf etdirilməsində və turistlərin bu prosesdən zövq almasında və onların istehlak zövqlərinin qarşılanmasında mühüm rol oynayırlar. Bundan əlavə, artıq Avropa ölkələrinin demək olar ki, üçdə ikisində aqroturizm dövlətin investisiya proqramları çərçivəsində dəstəklənir. Bütün bunlar onu göstərir ki, aqroturizm artıq turizmin strukturunda şaxələnməni özündə əks etdirən bir prosesdir. Xarici ölkələrdə aqroturizmin davamlı inkişafının təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilir və bu tədbirlər isə son nəticədə adı çəkilən sahədə iqtisadi artımın təmin edilməsinə əlverişli şərait yaradır.

Müasir şəraitdə qlobal miqyasda aqroturizm bazarı kifayət qədər sürətlə inkişaf etmişdir. Qlobal aqroturizm bazarının inkişafı istehlakçıların zövqlərindən, gəlirlərindən, həmçinin insanların kənd həyatında fəal şəkildə iştirak etmək arzusundan yaranır. 2019-2024-cü illərdə qlobal aqroturizm bazarının inkişaf dinamikası aşağıdakı **cədvəldə** öz əksini tapmışdır:

**Cədvəl 1. 2019-2024-cü illərdə qlobal aqroturizm bazarının inkişaf dinamikası**

| İl | Qlobal bazar (MİN usd) | ABŞ | Hindistan | Çin | İtaliya | Fransa |
|---|---|---|---|---|---|---|
| **2019** | 69,240 | 900 | 730 | 310 | 230 | 205 |
| **2020** | 22,600 | 860 | 700 | 295 | 220 | 200 |
| **2021** | 45,395 | 1,000 | 780 | 320 | 235 | 210 |
| **2022** | 39,000 | 1,260 | 870 | 340 | 245 | 215 |
| **2023** | 66,000 | 2,720 | 1,050 | 370 | 252 | 226 |
| **2024** | 73,200 | 3,285 | 1,178 | 396 | 260 | 233 |
| **2019-cu illə müqayisədə 2024-cü ildə artım, %-lə** | 5,7 | 3,6 dəfə | 61 | 28 | 13 | 13,6 |

***Mənbə:*** *(8) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi 2019-cu illə müqayisədə 2024-cü ildə qlobal bazarın həcmi 5,7%, ABŞ-da 3,6 dəfə, Hindistanda 61%, Çində 28%, İtaliyada 13%, Fransada isə 13,6 % artmışdır. 2020-

2023-cü illərdə istər qlobal miqyasda, istərsə də cədvəldə adı çəkilən ölkələr üzrə aqroturizm bazarının inkişafında tənəzzül meyillərinin yaranması COVID-19 pandemiyasının bilavasitə təsiri ilə bağlıdır. COVID-19 pandemiyası başladıqdan 1il sonra 2020-ci ildə qlobal aqroturizm bazarının həcmi 77,4 % azalaraq, 22 600 milyon ABŞ dollarına bərabər olmuşdur. Kifayət qədər maraqlı məqam ondan ibarətdir ki, Hindistanda aqroturizm bazarının inkişafında azalma meyilləri o qədər də kəskin şəkildə müşahidə edilməmişdir. Aqroturizm bazarının inkişafında zəifləmər daha çox Avropa ölkələrində özünü büruzə vermişdir.

Son illər iqtisadiyyatın qloballaşması və eləcə də şaxələndirmə proseslərinin həyata keçirilməsinin nəticəsidir ki, bütövlükdə qlobal rəqabət məkanında turizm fəaliyyətinin strukturunda aqroturizmin xüsusi çəkisi artmaqdadır. Belə ki, 2023-cü ildə Avropa ölkələrində turizmin strukturunda aqroturizmin xüsusi çəkisi 50% təşkil etmişdir. Bundan əlavə, Beynəlxalq ticarət təşkilatının proqnozlarına görə 2028-ci ildə qlobal aqroturizm bazarının ümumi həcmi 79,9 milyard ABŞ dollarına bərabər olacaqdır *[UNWTO, Rural Tourism Annual Report 2023].*

COVID-19 pandemiyası qlobal məkanda olduğu kimi Azərbaycan Respublikasında da kifayət qədər məhdudlaşdırmaların olması ilə yadda qalmışdır. Belə ki, həmin dövrdə “evdə qal” kampaniyası çərçivəsində insanların ictimai iaşə müəssisələrinə və istirahət mərkəzlərinə gedişi tam mənası ilə qapadılmışdır. Belə bir şəraitdə, təbii ki, adı çəkilən COVID-19 pandemiyasının Azərbaycanda turizmin inkişafına da kifayət qədər mənfi təsirləri mövcud olmuşdur. 2019-2023-cü illərdə Azərbaycan Respublikasında turizmin inkişaf göstəriciləri aşağıdakı **cədvəldə** öz əksini tapmışdır.

**Cədvəl 2. 2019-2023-cü illərdə Azərbaycan Respublikasında turizmin inkişaf göstəriciləri**

| İl | Gələn turistlər (nəfər) | Otellərin sayı | Yataq yerləri | Turizmin ÜDM-də payı(%) |
|---|---|---|---|---|
| **2019** | 3 170 000 | 830 | 39 000 | 3,5% |
| **2020** | 795 000 | 820 | 38 500 | 2,2% |
| **2021** | 1 600 000 | 825 | 38 900 | 2,8% |
| **2022** | 1 650 000 | 835 | 39 200 | 3,1% |
| **2023** | 2 000 000 | 850 | 40 000 | 3,4% |

***Mənbə:*** *(9, 8.) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, 2019-cu ildə Azərbaycana gələn turistlərin sayı 3 170 min nəfər təşkil etmişdirsə, pandemiya prosesləri nəticəsində ölkəyə gələn turistlərin sayında kəskin azalma müşahidə edilmişdir. Belə ki, 2019-cu illə müqayisədə 2020-ci ildə ölkəmizə gələn turistlərin sayı 75% azalaraq, 795 min nəfərə çatmışdır. 2021-2022-ci illərdə nisbətən artım müşahidə edilmiş, hətta 2023-cü ildə ölkəyə gələn 2 milyon turist belə 2019-cu ildəki göstəricinin 65%-ni təşkil etməništir. 2019-cu ildə turizm fəaliyyəti ÜDM-də 3,5 % olnuşdursa, 2022-ci ildə turizmin ÜDM-də payı 1,3 % azalmış, sonralar isə 2021-ci ildən isə müəyyən artım meylləri nəzərə çarpır.

Qısa müddət ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bəzi layihələrin icrasına start verilmişdir. Hazırda əsas məqsəd işğaldan azad olunmuş əraziləri bərpa etməkdir ki, artıq böyük tikinti layihələrinin reallaşdırılmasına başlanılmışdır. Hazırda Qarabağın avtomobil yolları, dəmir yolu xətləri, istifadəyə verilmiş beynəlxalq hava limanları ilə yanaşı, əlavə bir beynəlxalq hava limanının da inşası planlaşdırılır. Qarabağ bölgəsinin enerji təchizatı və digər mühüm layihələrin həyata

keçirilməsi də nəzərdə tutulur. Belə layihələrdən biri Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcəkdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoyuluşu üçün kifayət qədər iqtisadi əsaslar mövcuddur. Burada çoxlu enerji mənbələrinin, dəmir filizi ehtiyatlarının, tikinti materialları üzrə xammal yataqlarının olması bir sıra xarici ölkələrin (Türkiyə, İran, Pakistan və s), eləcə də yerli biznes və iri korporasiyaların sərmayə qoyuluşuna maraq yaratmışdır.

Problemə bu aspektdən yanaşdıqda hesab etmək olar ki, aqroturizm əslində aqrar-iqtisadiyyatın şaxələndirilməsində önəmli rol oynamaqla, bütövlükdə kənd həyatına istehlakçıların maraqlarının daha da gücləndirilməsinə gətirib çıxarır və bu da mədəni irsin qorunması baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda  bu proseslər ekoloji təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm uğur kimi də səciyyələnə bilər.

Qlobal çağırışlar fonunda aqroturizmin inkişaf etdirilməsinin özünəməxsus strateji perspektivləri vardır. Bu strateji perspektivlər nəinki qlobal rəqabət mühitində və qlobal bazarlarda iqtisadi artımın dərinləşməsinə gətirib çıxarır, eyni zamanda turizm perspektivlərinə malik olan ölkələrdə də ÜDM-n həcminin artırılmasında alternativ istiqamət kimi səciyyələnə bilər. Bu baxımdan Azərbaycan Respublikasının qlobal iqtisadi məkana inteqrasiyasının prioritet istiqamətlərindən biri də aqroturizmin inkişaf etdirilməsi ola bilər. Qeyd etmək lazımdır ki, 2020-ci ilin sentyabrın 27- dən etibarən 44 günlük müharibə nəticəsində Azərbaycan özünün əzəli torpaqlarına sahib olmuş və hazırda həmin ərazilərdə dinc quruculuq işləri uğurla davam etdirilir. İşğaldan azad edilmiş ərazilərin istər sənaye məhsullarının istehsalı, istərsə də turizmin inkişafı baxımından böyük potensialı mövcuddur.

Həmin ərazilərin təbii iqlim şəraiti, turizm potensialı baxımından coğrafi mövqeyi, mineral sularla zənginliyi və eləcə də tarixi abidələrinin mövcudluğu turizmin, o cümlədən aqroturizmin inkişafında əhəmiyyətli rol oynaya bilər. Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialında aqrar sahə əhəmiyyətli yer tutur. Lakin bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin özünəməxsus aqrar ixtisaslaşma istiqaməti və fərqli coğrafi xüsusiyyətləri mövcuddur. Məhz bu ixtisaslaşma və fərqli coğrafiyadan yanaşsaq işğaldan azad edilmiş ərazilərdə aqroturizmin özünəməxsus növmüxtəlifliklərini inkişaf etdirmək olar. Ağdam, Füzuli, Xocavənd, Ağdərə rayonlarında şərabçılıq turizminin, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan  rayonlarında dağ, eko və müalicəvi turizmin inkişaf etdirilməsi üçün geniş perspektivlər mövcuddur. Şuşada və Xankəndidə mədəni və etnoturizmin inkişaf etdirilməsi regiona xeyli xzrici turistin gəlməsinə imkanlar verə bilər. Bütün bunlar isə hazırkı şəraitdə uğurla davam etdirilməlidir. Əhalinin həmin ərazilərdə dayanıqlı məskunlaşma da aqroturizmin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edə bilər. İşğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, infrastruktur sistemlərinin inkişafı, təhlükəsizliyin təmin edilməsi və digər bu kimi amillər həmin ərazilərdə aqroturizmin inkişafına da böyük töhfə verə bilər. İşğaldan azad edilmiş ərazilərdə aqroturizmin inkişaf etdirilməsi, mahiyyət etibarilə, bu ərazilərdə məskunlaşacaq əhalinin alternativ gəlir mənbəyi və məşğulluq mənbəyi kimi də çıxış edə bilər.

Nəzərə almaq lazımdır ki, aqroturizmin özünəməxsus üstünlükləri mövcuddur. Bu üstünlüklərdən biri də ondan ibarətdir ki, aqroturizmin inkişaf etdirilməsi üçün iri həcmli investisiya resurslarına o qədər də ehtiyac yoxdur. Məhz bütün bunlar işğaldan azad edilmiş regionlarda aqroturizmin inkişafının güclü tərəfləri kimi çıxış edə bilər. Məhz bu istiqamətdən çıxış etsək, hesab etmək olar ki, işğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məskunlaşdığı şəraitdə aqroturizmin inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi həm də adı çəkilən məkanın dünyaya

açılmasına imkan verəcəkdir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması da nəinki məhsulların, əmtəələrin müxtəlif bazarlara, müxtəlif ölkələrə iqtisadi cəhətdən səmərəli şərtlərlə ixracına şərait yaradar, xarici turistlərin bu regiona gəlişini də stimullaşdıra bilər.

Aqroturizm fəaliyyətində daxili və xarici turistlərin cəlb edilməsi üçün bütün regionlarda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə innovativ vasitələrdən istifadə edilməsi vacib şərtlərdən biridir. Bu innovativ vasitələrin yaradılması prosesinə artıq cənab Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Zəngilan rayonunun Ağalı kəndində başlanılmışdır. Ağalı kənd layihəsi insanların innovativ vərdişlərə yiyələnməsində önəmli rol oynayır. Fikrimizcə, aqrobiznesin mühüm tərkib hissəsi kimi sayıla biləcək aqroturizmin inkişafında rəqəmsal texnologiyaların tətbiqi həm dəyər zəncirinin genişləndirilməsinə, eləcə də dəyər zəncirində aqrar sahənin yerinin və rolunun daha da artırılmasına əlverişli şərait yarada bilər.

Aqrobiznes sahəsində rəqəmsal texnologiyalar effektiv dəyər zəncirinin formalaşdırılmasını və bazara çıxış imkanlarını bir sıra yollarla yaxşılaşdıra bilər:

- Rəqəmsal texnologiyalar, kredit, siğorta və bank hesablarına çıxış imkanlarını genişləndirməyi təmin etməklə, biznes strukturları ilə maliyyə qurumları arasında mövcud informasiya çatışmazlığı problemini azaldar və ya aradan qaldırar;

- Aqrobiznes iştirakçılarının bəzi hallarda bazarın vəziyyəti haqqında zəruri məlumata malik olmamaları, vasitəçilərin isə informasiyaya çıxışlarının daha yüksək əlçatanlığa sahib olması, onların daha çox bazar gücünə və mənfəət payına malik olmasına səbəb olur. Rəqəmsal texnologiyalara əsaslanan bazar platformaları isə istehsalçı və istehlakçıların birbaşa əlaqələndirməyə imkan verir [ 5, s. 125].

Aqrobiznesin mühüm tərkib hissəsi kimi aqroturizm məhz ekoloji prinsiplərə də söykənməlidir. Daha doğrusu, dayanıqlı ekoloji tarazlığın təmin edilməsi məhz ətraf mühitin qorunması ilə bağlı proseslərin davamlı olataq təşviqindən bilavasitə asılıdır.

Ətraf mühitin qorunması və dayanıqlı inkişafın təşviq edilməsi prosesləri, ümumilikdə turizm fəaliyyəti ilə müqayisədə, aqroturizm sahəsində daha çox ön plana çəkilir. Belə ki, bu həm kənddə biomüxtəlifliyin və mədəni irsin qorunması baxımından, həm də turistlər üçün sağlam ekoloji şəraitin yaradılması və mövcud təbii imkanlardan səmərəli istifadə baxımından mühüm əhəmiyyətə malikdir. Araşdırmalar göstərir ki, aqroturizmin inkişaf etdirilməsi üçün innovativ həllərlə bərabər, eyni zamanda infrastrukturun təkmilləşdirilməsi və bu sahə hesabına məşğulluğun artırılması üçün də böyük imkanlar vardır. İnfrastruktur sistemini yalnız təhsil, nəqliyyat və logistika prosesləri ilə məhdudlaşdırmaq doğru olmazdı. Regionlarda telekommunikasiya vasitələrinin tam tətbiqi və informasiya-kommunikasiya resurslarından səmərəli istifadənin genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər informasiya infrastrukturunun yaradılması və dövlət dəstəyi ilə əhatə olunmalıdır. Bundan əlavə, artıq Respublikamızın ali və orta ixtisas təhsili müəssisələrində hazırlanan ixtisaslı kadrların, məhz regionlarda aqroturizmin inkişafına yönəlmiş mütəxəssis kimi fəaliyyətinə də geniş önəm verilməlidir. Həmin mütəxəssislərin xarici dil biliklərinə malik olmaları və kompüter texnologiyalarından sərbəst şəkildə istifadə etmələri gələn xarici turistlər üçün daha uyğun şərait yaradar. Bütün bunlar davamlı xarakter daşımaqla regionlarda məşğulluğun təmin edilməsinə əlverişli şərait yarada bilər.

Qlobal rəqabət mühitində baş verən dəyişikliklər, təbii ki, aqrar sahədən də yan keçmir. Bu baxımdan iqtisadi inkişafı təmin etmək üçün, aqrar sahənin alternativ inkişaf prioritetlərini özündə

əks etdirən və iqtisadi şaxələnmədə önəmli rol oynayan aqroturizm sektorunun özünəməxsus strateji modeli formalaşdırılmalıdır. Aqroturizmin inkişafının özünəməxsus aşağıdakı üç modeli üzərində dayanılması daha məqsədəuyğun olardı. Birinci model, ilk növbədə kənd təsərrüfatında baş verən böhranlarla əlaqədar işçi qüvvəsinin xidmət sferalarına üz tutması, daha doğrusu aqroturizm istiqamətində öz fəaliyyətini davam etdirməsi ilə bağlıdır. İkinci model ondan ibarətdir ki, beynəlxalq turizm ilk növbədə ixtisaslaşmanın mühüm tərkib hissəsini təşkil edir. Digər tərəfdən, iqtisadi inteqrasiya prosesi aqroturizmin də inkişafı üçün əlverişli şərait yaradır. Belə ki, turizm fəaliyyətinin ən mühüm növmüxtəlifliklərindən biri olan aqroturizm, həm aqrar iqtisadiyyat, həm də turizm sektorunda kifayət qədər şaxələnmə doğura bilir. Üçüncü modelin isə xarakterik cəhəti xüsusilə tropik xarakterli ölkələr üçün səciyyəvidir. Belə ki, aqroturizm həmin ölkələrdə kənd təsərrüfatı parklarının yaradılması, təbliğat, eləcə də kənd həyatının saxlanılması baxımından mühüm strateji əhəmiyyətə malikdir.

Aqroturizmin inkişaf etdirilməsi sahəsində qlobal şokların özünəməxsus təsirləri ola bilər və bu şoklardan çıxma prosesi də demək olar ki, uzunmüddətli zaman kəsiyi tələb edə bilər. İqtisadiyyatın digər sahələri ilə müqayisədə turizm sektoru qlobal şoklara qarşı daha çevik reaksiya göstərir. Bu çeviklik onunla bağlıdır ki, əhali təhlükəsiz yerlərə , eləcə də antipandemiya şəraitinə daha çox üstünlük verməyə çalışırlar. Bütün bunları nəzərə alaraq demək olar ki, aqroturizm turizm fəaliyyətinin mühüm bir tərkib hissəsi kimi turizmin özünəməxsus klassik və spesifik xüsusiyyətlərini özündə saxlayır.

Qeyd etmək lazımdır ki, Avropa İttifaqına daxil olan ölkələrdə aqroturizmin inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlərə, xüsusilə ətraf mühitin mühafizəsinə daha çox üstünlük verilir. Hesab edilir ki, ətraf mühitin mühafizəsi aqroturizmin inkişaf etdiyi şəraitdə daha effektiv şəkildə reallaşdırıla bilər. Bu baxımdan, 1999-cu ildə Avropa Komissiyası tərəfindən hazırlanan və qəbul edilən "Kənd yerlərində keyfiyyətli turizmə gedən yol" adlı hesabatda qeyd edilir ki:

- Kənd təsərrüfatı Avropa İttifaqına daxil olan ölkələrin 80%-də turizm üçün əlverişli məkan rolunu oynayır;

- Kənd təsərrüfatı istehsal funksiyası ilə yanaşı, həm də müxtəlif funksiyalar yerinə yetirir. Bu funksiyalar ətraf mühitin mühafizəsini, turizmin inkişafını, landşaftlardan və təbii resurslardan səmərəli istifadə edilməsini, çirklənmənin qarşısının alınmasını nəzərdə tutur;

- Kənd təsərrüfatı, eyni zamanda beynəlxalq ssenarilərdə baş verən dəyişikliklərə nəzərən elə bir sahədir ki, bütövlükdə beynəlxalq şoklara kifayət qədər adekvat reaksiya göstərir. Bununla belə, bu dəyişikliklərin təsirlərini də effektiv şəkildə reallaşdırmaq mümkündür;

- Kənd təsərrüfatı, həmçinin inkişafdan qalmış kənd rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsində də əhəmiyyətli vasitə hesab edilir. Bu baxımdan, inkişafdan geri qalmış regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı bütövlükdə aqrobiznesin tərkibində şaxələnmə prosesinə məruz qala bilən bir sahədir. Odur ki, aqroturizm, eləcə də kənd təsərrüfatı məhsullarının emalı və bu kimi digər proseslər aqrar sahənin inkişafında, həmçinin kənd yerlərinin və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində əhəmiyyətli sahə hesab edilə bilər [7].

Qloballaşma prosesinin dərinləşdiyi bir şəraitdə aqroturizm iqtisadi şaxələndirmənin tərkib hissəsi olmaqla, kifayət qədər geniş perspektivlər də vəd edir. Belə ki, qloballaşma ilk növbədə kənd təsərrüfatında davamlı inkişaf təmayülləri yaratmaqla yeni iş yerlərinin yaranmasına əlverişli şərait yaradır və xüsusilə Respublikamızın reallıqları baxımından yanaşsaq, kənd yerlərində gəlirləri yalnız

kənd təsərrüfatı məhsullarının istehsalından formalaşan kənd əhalisi üçün məşğulluq perspektivləri doğurur. Bundan əlavə, aqroturizm kənd landşaftlarının qorunması baxımından da perspektivlərə malikdir. Şəhər sakinlərinin kənd landşaftlarında istirahəti və onların təsərrüfat həyatı ilə bağlı təcrübələri həm şəhər əhalisi üçün, həm də kənd əhalisi üçün önəmli rol oynayır. "Şəhərdən kəndə" layihəsi çərçivəsində demək olar ki, dünyanın əksər inkişaf etmiş ölkələrində şəhər sakinləri bir zaman kənd mühitində yaşamağa üstünlük verirlər. Eyni zamanda şəhər əhalisi yerli məhsulların nümunələrini əldə edir, qidaların hazırlanma texnologiyasını öyrənir, məhsul yığımında iştirak edir. Bundan əlavə, kənd yerlərində hazırlanmış sənətkarlıq nümunələrini də əldə edirlər.

Yerli iqtisadiyyatın inkişafına aqroturizm həm də əlavə dəyər qatır. Bu dəyərin mahiyyəti ondan ibarətdir ki, kənd yerlərinə aqroturizm nümayəndəsi kimi gəlmiş insanlar burada vəsait xərcləməklə kənd yerlərində satılan müəyyən məhsulları əldə edir, xidmətlərdən yararlanırlar. Bununla da kənd yerlərinin inkişafı üçün əlverişli şərait yaranır. Kənd yerlərində aqroturizmin inkişafının genişləndirilməsi məqsədilə ilk növbədə infrastruktur sisteminin və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi mühüm əhəmiyyətə malikdir. Yerli idarəetmə orqanlarının və bələdiyyələrin rolu, xüsusilə turistik rayonlarda daha çox aktuallaşır. Belə ki, həmin qurumlar aqroturizmin inkişaf etdirilməsi məqsədilə regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət yetirməlidirlər.

Yuxarıda qeyd edilənləri ümumiləşdirirək belə nəticəyə gəlmək olar ki, qlobal rəqabət mühitində aqroturizmin inkişafı mühüm prioritetlərdən biri sayıla bilər. Bu, həm əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında, həm də dövlət büdcəsinə alternativ mənbələrdən vəsait daxilolmalarının artmasında, eləcə də turizmin iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi inkişaf etməsində mühüm rol oynaya bilər.

## Nəticə

İqtisadi inkişafın şaxələndirilməsində aqroturizmin rolu kənd yerlərinin, eləcə də regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi zərurətindən irəli gəlir. İqtisadi inkişafın şaxələndirilməsi prosesi, iqtisadiyyatın sahə və ərazi kəsimlərində əlavə, yəni alternativ mənbələrdən gəlir əldə etmək imkanlarını özündə əks etdirir. Aqroturizmin inkişaf etdirilməsi hesabına region ərazilərində işsizliyin azaldılması mümkün olur.

Aqroturizmin inkişaf etdirilməsi regionda infrastrukturun inkişafını, ictimai-iaşə müəssisələrinin yaradılmasını, alternativ xidmət şəbəkələrinin formalaşdırılmasını tələb edir. Bundan əlavə, aqroturizmin inkişafında ixtisaslı kadrların hazırlanması, onların xarici dilləri bilməsi, eləcə də elektron kütləvi informasiya vasitələrindən istifadə imkanlarının müasir reallıqlara uyğun olması da vacib şərtlərdən biridir.

## Ədəbiyyat

1. Abbasov A. F., İqtisadi inkişafın müasir meyilləri: qlobal çağırışlar, təhditlər və perspektivlər, Monoqrafiya, Bakı, 2024, 576 s.
2. Азизов А. А., Пути эффективного развития предпринимательства в сфере туризма Азербайджана. (Монография) Баку, 2018, Издательство "Кооперация", 320 с.

3. Азизов А. А., Предпринимательство в туризме Азербайджана, Монография, Баку, 2012, 307 с.
4. İbrahimov E. Ə. “Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafının strateji istiqamətləri, Monoqrafiya, Bakı, 2023, 368 s.
5. Əmrahov V. T., Rəhimov F. M., Mahmudov E. N., Hacıyeva S. İ., Aqrobiznes (Dərs vəsaiti), Bakı, 2021, 180 s.
6. Hüseynov M. M., Avropa İttifaqı iqtisadiyyatı: mövcud reallıqlar və yanaşmalar”, Dərs vəsaiti, Bakı, 2025, 312 s.
7. Сельское развитие в Европе. Политика, институты и действующие лица на местах с 1970- х годов до наших дней | Пер. с итал. И. Храмовой. - Совместное издательство Продовольственной и сельскохозяйственной организации ООН и Bisiness Media of the Sole 24 Ore. 2010.
8. IMARC Group, Agrotourism Market Report 2024, USDA ERS, Farm Income Data 2022 (Agrotourism Revenues), Statista, Global Rural Tourism Data Portal 2023, UNWTO, Rural Tourism Annual Report 2023, əsasında müəllif tərəfindən tərtib edilmişdir.
9. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK)-Turizm statistikası (2024), Azərbaycan Dövlət Turizm Agentliyi - illik hesabatlar (2024).



A. B. Malikov

*PhD candidate,* Azerbaijan Cooperation University


**Agroturism development prospects in a global competitive environment**

*Summary*


*The development of non-oil sectors is of great strategic importance for oil-exporting countries in a global competitive environment. In this regard, considering the wide opportunities for the development of agrotourism in our Republic, determining the development directions of agrotourism in a global competitive environment is characterized as an important global challenge.*

*The development of agrotourism in a global competitive environment includes processes related to the creation of new jobs and ensuring reliable employment in the regions. From this point of view, the article evaluates the place and role of agrotourism in a global competitive environment, analyzes the experience of foreign countries in the development of agrotourism and the development prospects of agrotourism in our country.*



***Keywords:*** *global competitive environment, agrotourism, support for agrotourism, socio-economic development of regions.*

А. Б. Маликов
*Диссертант* Азербайджанского Университета Кооперации

**Перспективы развития агротуризма в условиях глобальной конкуренции**

Резюме

*Развитие не нефтяных секторов имеет большое стратегическое значение для стран-экспортеров нефти в условиях глобальной конкуренции. В этой связи, учитывая широкие возможности развития агротуризма в нашей Республике, определение направлений развития агротуризма в условиях глобальной конкуренции характеризуется как важная глобальная задача.*

*Развитие агротуризма в условиях глобальной конкуренции включает в себя процессы, связанные с созданием новых рабочих мест и обеспечением надежной занятости в регионах. С этой точки зрения в статье оценивается место и роль агротуризма в условиях глобальной конкуренции, анализируется опыт зарубежных стран в развитии агротуризма и перспективы развития агротуризма в нашей стране.*

***Ключевые слова:*** *глобальная конкуренция, агротуризм, поддержка агротуризма, социально-экономическое развитие регионов.*